İki xalqın böyük oğlunun yubileyi qeyd edildi

❒ ***Dünən AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Azərbaycan xalqının böyük oğlu, özbək ədəbiyyatının, elminin görkəmli nümayəndəsi Maqsud Şeyxzadənin anadan olmasının 110 illik yubileyi münasibətilə "Maqsud Şeyxzadə – Azərbaycan və özbək xalqlarının görkəmli oğlu" mövzusunda beynəlxalq elmi konfrans keçirildi. Konfransdan əvvəl qonaqlar Maqsud Şeyxzadənin əsərlərinin yer aldığı, həmçinin, Özbəkistanın milli geyim və məişət əşyalarından ibarət sərgi ilə tanış oldular.***

Özbəkistan Respublikasının Azərbaycandakı səfirliyinin dəstəyi ilə keçirilən tədbiri AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktor müavini, filologiya elmləri doktoru, professor Əlizadə Əsgərli açaraq, konfrans iştirakçılarını institut rəhbərliyi adından salamladı. Bildirdi ki, bu tədbir iki xalqın böyük oğlu Maqsud Şeyxzadəyə həsr edilib. Vurğuladı ki, Azərbaycan və özbək xalqları arasında mədəni əlaqələrin dərin kökləri var.

Maqsud Şeyxzadənin Azərbaycanda ilk tədqiqatçılarından Xəlil Rza Ulutürkün olduğunu bildirən natiq hazırda "Elm" nəşriyyatında şairin əsərlərinin nəşrə hazırlandığını diqqətə çatdırdı.

Özbəkistan Respublikasının Azərbaycandakı səfiri Şerzod Fayziyev tədbirin təşkilinə görə minnətdarlığını bildirdi. Qeyd etdi ki, Maqsud Şeyxzadənin adı bu gün Özbəkistanda məşhur şəxsiyyətlərinin xatirəsi kimi əziz tutulur və ehtiramla xatırlanır. Səfir M. Şeyxzadənin 100 illik yubileyinin 2008-ci ildə Daşkənddə və Bakıda geniş qeyd edildiyini xatırladaraq şairin çoxşaxəli yaradıcılığından nümunələr gətirdi.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələri şöbəsinin müdiri, filologiya elmləri doktoru Almaz Ülvi "Maqsud Şeyxzadə-taleyi və yaradıcılığı ədəbi əlaqələr müstəvisində" mövzusunda çıxış etdi. Qeyd edildi ki, Maqsud Şeyxzadə 1908-ci ildə Ağdaşda doğulub. Orta təhsilini bitirdikdən sonra Bakıda ali təhsil alıb. İlk şeirləri hələ 13 yaşında ikən "Kommunist" qəzetində dərc edilən şair 1928-ci ildən o dövrkü rejimin təzyiqi ilə Azərbaycandan sürgün olunub. Həmin vaxtdan Özbəkistanı özünə ikinci Vətən seçən M.Şeyxzadə ömrünün sonunadək özbək ədəbiyyatını və elmini öz dərin məzmunlu əsərləri ilə zənginləşdirib. Əlişir Nəvai haqqında ilk elmi məqalənin müəllifi olan Maqsud Şeyxzadə bədii tərcümə işinin də yüksək bilicisi olmuş, yaradıcılığında Avropa və dünya klassiklərinin, eləcə də Azərbaycan ədəbiyyatının görkəmli simalarının əsərlərini özbək dilinə tərcümə etmişdir.

Özbəkistan Elmlər Akademiyasının akademiki Naim Kərimov Maqsud Şeyxzadənin bir şair, dramaturq, tərcüməçi və alim kimi xüsusiyyətlərindən danışdı. Bildirdi ki, M.Şeyxzadə özbək xalqının dünya ədəbiyyatına bəxş etdiyi ən parlaq simalardan biridir.

Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru Yaşar Qasımbəyli, Özbəkistan Elimlər Akademiyası Ədəbiyyat, Dil və Folklor İnstitutunun baş elmi işçisi, nəzəriyyəçi alim Akif Azalp, Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universitetinin professoru, filologiya elmləri doktoru Bokijon Tuxliyev, həmin universitetin dosenti, filologiya üzrə fəlsəfə doktoru Gülbahor Aşurova və başqaları Maqsud Şeyxzadə yaradıcılığının səciyyəvi xüsusiyyətlərindən söz açdılar.

Sonda şairin nəvəsi, AMEA-nın Abbasqulu ağa Bakıxanov adına Tarix İnstitutunun elmi işçisi Gülşən Kəngərlinskaya babası ilə bağlı xatirələrini danışdı. O, tədbirin təşkilatçılarına, xüsusilə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyliyə minnətdarlığını bildirdi.

Qabil YUSİFOĞLU,
"Xalq qəzeti"